**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 257 "17" 12 **2019-cu il**

**Binəqədi rayonunda "31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il"in qeyd edilməsi haqqında**

31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günüdür. Bu tarix milli birliyin yaradılmasının başlanğıc nöqtəsidir. Ulu öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsini, azərbaycançılıq ideyasını yaşadanlar bu birliyə, bu həmrəyliyə öz töhfələrini verirlər. Ulu öndər Heydər Əliyev azərbaycançılıq məfkurəsinin, həmrəyliyin banisi idi. Həmrəylik gününün qeyd olunması ilə bağlı tarixi qərar da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da verilmişdir. 1993-cü ildə isə ulu öndər Heydər Əliyev 31 dekabrın rəsmi olaraq dövlət bayramı - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi haqqında fərman imzalamışdır. Bu birliyin ana xəttini müəyyənləşdirən azərbaycançılıq ideyasının formalaşmasının başlanğıcı oldu və bu bayramla müxtəlif ölkələrdə yaşayan həmvətənlərimiz arasında ideoloji bütövləşmənin təməli qoyuldu. Həmrəylik günü xalqımızın birlik şüarının simvolik günüdür. Gündən-günə daha sürətlə inkişaf edən müstəqil Azərbaycan isə bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzidir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimiz isə azərbaycançılıq amalı ətrafında milli birlik və həmrəylik nümayiş etdirir, bütün qüvvə və bacarıqlarını ümummilli məqsədlər naminə səfərbər edirlər.

Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktuallığını qoruyur. Bu siyasət Heydər Əliyev siyasi yolunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu sahədə ardıcıl və qətiyyətli addımlar atılır.

31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni 2020-ci ilin gəlişi münasibətilə və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22, 4.1.27, 6.8-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni ilin qeyd edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

**2.** Binəqədi rayonunda "31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günü" və "Yeni il"in qeyd edilməsi məqsədilə Təşkilat Komitəsi yaradılsın və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Təşkilat Komitəsinin sədri:**

| | |
|---|---|
| İlqar Süleymanov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

| | |
|---|---|
| Aygün Əliyeva | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |
| Vüsar İsmayılov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |
| | **Təşkilat Komitəsinin üzvləri:** |
| Nicat Allahverdiyev | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| İskəndər Cahangir-zadə | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Yunis Hüseynov | Hüquq şöbəsinin müdiri |
| Yəhya Əliyev | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Azər Kərimov | Rayon təsərrüfatı şöbəsinin müdiri |
| Sabir Əliyev | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| Vüsal Axundov | Binəqədi Rayon Polis İdarəsinin rəis müavini |
| Kamil Şərbətov | Binəqədi Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi |
| Namiq Tarverdiyev | Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi |
| Elmin Zamanov | Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi |

**3.** Təşkilat Komitəsinə və aidiyyəti qurum rəhbərlərinə tapşırılsın ki, tədbirlər planında nəzərdə tutulmuş işlərin yüksək səviyyədə yerinə yetirilməsini təmin etsinlər.

**4.** Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanova həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**“________” ______________ 2019-cu il tarixli**
**_____ №-li Sərəncamı ilə təsdiq olunmuşdur**

**Binəqədi rayonunda 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni 2020-ci ilin gəlişinin qeyd edilməsi ilə bağlı**

# T Ə D B İ R L Ə R   P L A N I

| № | Tədbirin adı | Məsul təşkilatlar | Qeyd |
|---|---|---|---|
| 1. | Rayonun müəyyən olunmuş yerlərində bayramsayağı bədii-tərtibat işlərinin aparılması | Rayon İcra Hakimiyyəti<br>MKTB<br>tövsiyə edilsin: Bələdiyyələrə | |
| 2. | Rayon ərazisində küçə, park və meydanlarda təmizlik və abadlıq işlərinin aparılması | MKTB<br>tövsiyə edilsin: Bələdiyyələrə | |
| 3. | Bayram ərəfəsində əlil, aztəminatlı, şəhid və qaçqın ailələrindən olan uşaqlar üçün bayram şənliyinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti<br>Xəzər Universitetinin Dünya məktəbi | |
| 4. | Rayon ərazisində fəaliyyət göstərən təhsil, məktəbəqədər təhsil və mədəniyyət müəssisələrində 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni 2020-ci ilin gəlişinə həsr olunmuş tədbirlərin keçirilməsi | Rayon İcra Hakimiyyəti<br>rayon Gənclər və İdman İdarəsi,<br>rayonun təhsil, məktəbəqədər təhsil və mədəniyyət müəssisələri | |
| 5. | “31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” və “Yeni il” münasibətilə bir qrup aztəminatlı, əlil və məcburi köçkün ailələrinə bayram sovqatlarının paylanılması | Rayon İcra Hakimiyyəti<br>Bələdiyyələr | |

| | | | |
|---|---|---|---|
| **6.** | “31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” münasibətilə ali, orta ixtisas və orta ümumtəhsil məktəblərində rəsm sərgisinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti<br>rayon Gənclər və İdman İdarəsi | |
| **7.** | Bayram ərəfəsində asayişin qorunması, rayonun müəyyən olunmuş yerlərində bayramsayağı görülmüş bədii-tərtibat işlərinin mühafizəsinin təşkili | xahiş edilsin:Rayon Polis İdarəsi | |
| **8.** | Keçirilən tədbirlərin və görülən işlərin KİV-də işıqlandırılması | Rayon İcra Hakimiyyəti | |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** — **Aygün Əliyeva**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** — **Nicat Allahverdiyev**